


دوشنبه 13 اردیبهشت 1395 - 11:52

## lham liyevdn ermnilr kskin xbrdarlq

Azrbaycan prezidenti dvltin ordu quruculuu il bal vvlcdn grdy hrtrfli tdbirlrin zn dorultduunu .vurulayb

**AranNews- "Ermənistana beynəlxalq təzyiqlər artan zaman işğalçı dövlət danışıqlar prosesindən ."yayınmaq üçün atəşkəs rejimini pozur və təxribata əl atır**

Bu sözləri bu gün cəbhəyanı rayonlara səfər edən Azərbaycan prezidenti İlham Əliyev N saylı .hərbi hissədə çıxışında deyib

Bu ilin əvvəlində də Ermənistana beynəlxalq təzyiqlərin artması ilə əlaqədar danışıqlarda müəyyən irəliləyiş hiss olunduğu bir vaxtda işğalçı dövlətin aprelin ilk günlərindən yenidən atəşkəsi pozduğunu və ordumuz tərəfindən layiqli cavab aldığını deyən dövlət başçısı aprelin 5-də Azərbaycan tərəfinin sülhpərvərlik nümayiş etdirərək atəşkəsə razılıq verməsinə baxmayaraq, aprelin 27-dən 28-nə keçən gecə yenidən təmas xəttinə yaxın yaşayış məntəqələrimizin atəşə .tutulduğunu deyib

.İlham Əliyev qeyd edib ki, Azərbaycan bu vəziyyətlə heç vaxt barışmayacaq

Hazırda təmas xəttində üstünlüyün tamamilə Azərbaycan tərəfində olduğunu və döyüş mövqelərimizin daha da möhkəmləndiyini deyən İlham Əliyev dövlətin ordu quruculuğu ilə bağlı .əvvəlcədən gördüyü hərtərəfli tədbirlərin özünü doğrultduğunu vurğulayıb


قدرت گرفته از پرتال شمس - ITShams.ir